


# Azərbaycan ordusunun yaranma tarixi və zəfər salnaməsi

**Əfqan Vəliyev,**
**Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi**



***Bu il iyun ayının 26-da dünya hərb tarixinə yazılan, 2020-ci il sentyabr ayının 27-dən başlayan 'Dəmir Yumruq" əməliyyatı – 44 günlük Vətən müharibəsində Ermənistan ordusunu darmadağın edərək məğlubiyyətə uğradan, Xankəndini, Xocalını, Əsgəranı, Ağdərəni və bütün Qarabağı erməni separatizmindən təmizləyən Qafqazda ən müasir ordu hesab olunan qalib Azərbaycan ordusunun yaranmasının 106-cı ildönümüdür. Prezident, Ali Baş Komandan İlham Əliyevin komandanlığı ilə Azərbaycan ordusunun Vətən müharibəsində qazandığı şanlı qələbə dünya və regional siyasətdə dövlətimizin gücünü və nüfuzunu daha da artırdı. Bu qələbə Azərbaycan ordusunun gücü, rəşadəti, Ali Baş Komandanın ətrafında dəmir yumruq kimi birləşən xalq birliyinin təzahürüdür. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan Vətən müharibəsi tariximizdə yeni-yeni qəhrəmanlıq səhifələri açdı. Bu müharibə dövründə bütün dünya dövlətləri, türk dünyası, hər kəs rəhbəri olduğu dövlətin bayrağını zirvələrə ucaldan, tarixin nadir yetişdirdiyi şəxsiyyətlərdən biri olan hörmətli cənab Prezident İlham Əliyev kimi əsl vətənpərvər, vətəninə və xalqına ürəkdən bağlı dahi şəxsiyyətin inamına, əzminə və qətiyyətinə bir daha şahid oldu. Bu gün dünyanın ən güclü və modern ordularından biri sayılan, Ali Baş Komandan İlham Əliyev kimi müdrik lider və qalib sərkərdənin rəhbərlik etdiyi, şanlı tarixi yol keçən Azərbaycan ordusu quruluşunun 106-cı ilini şərəflə qeyd edir.***

1918-ci ilin may ayının 28-də qəbul edilmiş Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) istiqlal bəyannaməsində qeyd edilirdi ki, Azərbaycan özünü xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələri zərərsizləşdirmək üçün nizami orduya malik olmalı, özünün silahlı qüvvələrini yaratmalıdır. AXC hökumətinin prioritet vəzifələrindən biri ölkənin təhlükəsizliyinin təminatçısı olan ordu yaratmaq və onu formalaşdırmaqdan ibarət idi. Çünki, müstəqil ordusu olmayan dövlətin milli dövlətçiliyi həmişə yadellilərin təhlükəsi altında yaşamağa məhkumdur. Bu zərurətlə bağlı 1918-ci ilin may ayının 28-də yaradılan ilk kabinədə Azərbaycan hökumətinin müdafiə naziri vəzifəsinə general Xosrov bəy Sultanov təyin edildi. AXC-nin ordu quruculuğu haqqında tədbirlər planına müvafiq olaraq 1919-cu il noyabr ayının 1-nə qədər ordunun ən mühüm struktur bölmələri və hissələri yaradılıb başa çatdırılmalı idi. AXC yaradıldığı ilk dövrlərdə onun hərbi qüvvələri 600 nəfərlik könüllü dəstələrdən ibarət idi. Hökumət 1918-ci il iyunun 19-da ölkə ərazisində hərbi vəziyyət elan etdi. 1918-ci il iyunun 26-da AXC ilk mütəşəkkil hərbi hissəsinin - əlahiddə korpusun yaranması haqqında qərar verdi. Bu qərarla da Şərqin müsəlman aləmində ilk demokratik hökumətinin öz ordusunu yaratmağına hüquqi baza yarandı. Sonra ölkədə hərbi mükəlləfiyyət - orduya çağırış haqqında fərman imzalandı. Qısa müddətdə Azərbaycanda milli ordu quruculuğunda əsaslı nəticələr əldə olundu.

AXC Nazirlər Şurasının 1918-ci il 26 iyun tarixli qərarı ilə Çar Rusiyası dövründə "Vəhşi diviziya" ("Dikaə diviziə") adlanan keçmiş Tatar süvari alayının əsgərlərindən təşkil edilən və general Əliağa Şıxlinskinin rəhbərlik etdiyi Müsəlman korpusunun əsasında ilk ordu hissəsi, 5000 nəfər şəxsi heyəti olan "Əlahiddə Azərbaycan korpusu" yaradıldı. İyulun 11-də hökumət fərmanı ilə hərbi səfərbərlik elan edildi. Azərbaycan Respublikasının 1894-1899-cu illərdə anadan olmuş bütün müsəlman vətəndaşları orduya hərbi qulluğa çağırıldılar. AXC hökuməti Gəncəyə gəldiyi dövrdə 600 nəfərdən ibarət olan könüllü birliyi mövcud idi. Ordu quruculuğu sahəsində aparılan işlər nəticəsində 23 ayda 30.000 əsgərdən ibarət nizami ordu quruldu. ***Ordunun qurulduğu ilk vaxtlarda silah və hərbi sursat çatışmazlığı mövcud idi. Şəmkir ərazisində yerli və ətraf ərazilərdə yaşayan əhalini narahat edən və aralarında ermənilərin də olduğu Çar ordusuna aid hərbi qərargah yerləşirdi. Azərbaycan birlikləri Süleyman bəy Əfəndiyevin komandanlığında Qafqaz cəbhəsindən qayıdan Çar ordusunun özbaşınalığının qarşısını almaq məqsədi ilə Şəmkirdə çar qarnizonuna hücum edərək onları məğlub etmiş onların silah və sursat anbarlarını ələ keçirmişdi (1).***

Azərbaycan hökuməti ilə Osmanlı dövləti arasında 4 iyun 1918-ci ildə imzalan müqaviləyə əsasən Azərbaycana Qafqaz İslam Ordusu adı altında hərbi qüvvə göndərildi. Bu ordunun məramları arasında Azərbaycan ordusunun yaranmasına kömək etmək məsələsi də yer alırdı. Bu məqsədlə Azərbaycan hökuməti və Qafqaz İslam Ordusu zabitlərinin təşəbbüsü ilə 1918-ci ildə Bakı işğalda olduğu vaxtlarda Gəncədə Azərbaycan ordusuna zabit yetişdirmək üçün 250 nəfərin təhsil aldığı Zabit-vəkili adlı hərbi məktəb açılmışdı. Məktəbə rəhbərlik Qafqaz İslam ordusu zabiti Atıf bəyə həvalə edilmişdi (2). Qafqaz İslam Ordusu və Azərbaycan ordu bölmələrinin başlatdığı uğurlu hücum əməliyyatları ilə Azərbaycanın bir çox ərazisi, o cümlədən Bakı şəhəri düşmən qüvvələrdən azad edildi. 15 sentyabr 1918-ci ildə Qafqaz İslam Ordusu və Azərbaycan ordu bölmələrinin Bakıya daxil olub asayişi təmin etməsindən sonra, Bakı AXC-nin paytaxtı elan olundu və AXC hökuməti müvəqqəti paytaxt olan Gəncədən, Bakıya köçdü.

28 Fevral 1919-cu ildə saat 13:20-də keçirilən iclasda Hərbi Nazirlik və onun struktur və maaş büdcəsi müzakirə edilmişdi. Layihəni parlamentdəki Hərbi Komissiyanın üzvü Qara Bəy Qarabəyov təqdim etmiş, daha sonra Hərbi Nazir Səməd bəy Mehmandarov çıxış edərək ordu quruculuğu sahəsində görülən işlər haqqında məruzə etmişdi. Azərbaycan ordusunun hərbi geyimləri üçün istifadə edilən parçalar Şuşadakı fabrikdə emal olunurdu. Azərbaycan ordusunun ilk rəsmi zəfəri Muğan və Lənkəranı azad etməsi idi (3). 1919-cu ilin sentyabrında Çar polkovniki Alekseyevin 500 süvari dəstəsi və altı batareyasına qarşı Azərbaycan ordusunun başlatdığı hərbi əməliyyata general Həbib bəy Səlimov rəhbərlik etmişdi. 19 sentyabr 1919-cu ildə Mehmandarov və Həmid Qaydabaşı tərəfindən imzalanan 420 saylı əmrnamə əsasında həyata keçirilən hərbi plan zəfərlə nəticələnmiş, Muğan və Lənkəran azad edilmişdi (4). Zəngəzur və Əsgəran keçidi erməni Dro rəhbərliyindəki erməni birliklərinin hücumlarına məruz qalmışdı. Azərbaycan Hərbi nazirliyi tərəfindən Əsgəran-Zəngəzur bölgəsinə 1919-cu ildə Cavad paşa Şıxlı komandanlığında ordu qüvvələri göndərilmiş, 3 aprel 1919-cu ildə Azərbaycan ordusunun başlatdığı hücumla 12-13 gün ərzində ərazilər ermənilərdən azad edilmiş, eyni zamanda Şuşa və Xankəndi də bu hərəkatla mənfur qüvvələrdən təmizlənmişdi. Bu qələbənin ardından Azərbaycan ordusu Bakıda 22 mart 1920-ci ildə hərbi parad keçirmişdi (5).

***1920-ci il aprel ayının 27-si saat 00:05 radələrində 70 minlik XI Qırmızı Ordu, öndə 'III İnternasional", daha 3 zirehli qatar və 300 nəfərdən ibarət piyada desant olmaqla, Samur çayı üzərindəki körpünü keçib, böyük qoşunla Anastas Mikoyan, Qəzənfər Musabəyov da bolşevik süngüləri üzərində Azərbaycanda şura hökuməti qurmağa gəlirdi. Zirehli qatar Yalamaya üz tutur...***



***AXC Nazirlər Şurasının 1918-ci il 26 iyun tarixli qərarı ilə Çar Rusiyası dövründə "Vəhşi diviziya" ("Dikaə diviziə") adlanan keçmiş Tatar süvari alayının əsgərlərindən təşkil edilən və general Əliağa Şıxlinskinin rəhbərlik etdiyi Müsəlman korpusunun əsasında ilk ordu hissəsi, 5000 nəfər şəxsi heyəti olan "Əlahiddə Azərbaycan korpusu" yaradıldı. İyulun 11-də hökumət fərmanı ilə hərbi səfərbərlik elan edildi. Azərbaycan Respublikasının 1894-1899-cu illərdə anadan olmuş bütün müsəlman vətəndaşları orduya hərbi qulluğa çağırıldılar. AXC hökuməti Gəncəyə gəldiyi dövrdə 600 nəfərdən ibarət olan könüllü birliyi mövcud idi. Ordu quruculuğu sahəsində aparılan işlər nəticəsində 23 ayda 30.000 əsgərdən ibarət nizami ordu quruldu. Ordunun qurulduğu ilk vaxtlarda silah və hərbi sursat çatışmazlığı mövcud idi...***

**(ardı gələn sayımızda)**

**Səhifəni hazırladı: Gülnarə Habilqızı**